# MUSTAFA BƏY TOPÇUBAŞOVUN HƏYAT VƏ FƏALİYYƏTİ



***Görkəmli cərrah-alim, ictimai və dövlət xadimi, akademik Mustafa bəy Ağabəy oğlu Topçubaşov Azərbaycanın taleyüklü məsələlərində, tarixində, dövlətçiliyində, müxtəlif elm sahələrində əhəmiyyətli yer tutan Topçubaşovlar nəslindəndir. Bu şərəfli nəslin kökü XV-XVI əsrlərdə qədim türk torpağı olan İrəvanda təşəkkül tapıb. Sonralar bu nəslin bir qolu İrəvandan Gəncəyə, bir qolu da Tiflisə yayılıb. Tədqiqatçı Əsgər Zeynalov yazır: "Peterburq universitetinin professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) və Azərbaycan Demokratik respublikası Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov (1860-1934) da həmin kökə mənsubdur”.***

Vaxtı ilə "SSRİ-nin bir nömrəli cərrahı” adlandırılan Mustafa Ağabəy oğlu Topçubaşov 1895-ci ilin avqust ayında Qərbi Azərbaycanın İrəvan mahalının Göygümbəd kəndində anadan olmuşdur. Onların İrəvan şəhərində də böyük mülkləri olub. Atası Ağabəy dövrünün tanınmış, maarifpərvər, xeyirxah və olduqca alicənab kişilərindən-bəyzadələrindən olub. Həyat yoldaşı Fatimə xanım da incə duyumlu, dünyagörüşlü, elmə, sənətə marağı olan bir ana kimi üç oğlunun təhsilə, məktəbə bağlılığında böyük fədakarlıq göstərib. Ailənin ikinci oğlu Mustafa tanınmış Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun açdığı ibtidai məktəbdə oxuyub. Burada qardaşı Mehdi bəy və gələcəyin görkəmli ədəbiyyatşünas alimi Əziz Şəriflə bir sinifdə oxuyan Mustafa bəyə o zaman İrəvanın tanınmış ziyalıları Mirzə Abbas Məmmədzadə (Fars Abbas), İbadulla bəy Muğanlinski, Cabbar Məmmədzadə kimi böyük şəxsiyyətlər dərs deyirlər.

M.A.Topçubaşov 1904-cü ildə ibtidai təhsilini başa vurub gimnaziyaya daxil olmuş və 1914-cü ildə gimnaziyanı qızıl medala bitirdikdən sonra Kiyev Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur. Onun təhsil illəri çox qarışıq bir dövrə təsadüf edir. Ölkədə Oktyabr inqilabı baş vermişdi. O, belə bir çətin dövrdə, 1919-cu ildə təhsilini başa vurub Bakıya qayıdır. 1918-1920-ci illərdə erməni daşnakları İrəvan və onun ətrafında dəhşətli fəlakətlər törədir, silahsız azərbaycanlıları kütləvi şəkildə öldürür, kəndləri yandırırdılar. Topçubaşovlar ailəsi də bu faciədən qaça bilmir. Qardaşı Rza bəy Topçubaşovu erməni vandalları öldürüb, sonra isə cəsədini ata bağlayırlar. At onu götürüb evə gətirir. Bundan sonra Topçubaşovlar ailəsi məcburən doğma ata-baba yurdlarını tərk edib Naxçıvana köçürlər.

1919-cu ildə təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq etmiş, 1920-1923-cü illərdə Bakı Universitetinin tibb fakültəsinin cərrahlıq klinikasında ordinator, 1923-1930-cu illərdə fakültə cərrahlığı klinikasında assistent işləmişdir. 1930-cu ildə “Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi” mövzusunda doktorluq dissertasiyası müdafıə etmiş, bu işin elmi əhəmiyyətinə görə Mustafa bəy Topçubaşova professor adı verilmiş və o, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri seçilərək ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirmişdir.

Mustafa bəy Topçubaşov 1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu – inyeksion efır-yağ narkozunu – analgeziya üsulunu kəşf etmiş, bu metod sadəliyinə, hazırlanma və tətbiq texnikasının asanlığına, inhalyasion narkoz zamanı rast gəlinən bir sıra mənfi halların (dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması və s.) aradan qaldırılmasına imkan verdiyinə görə geniş tətbiq edilmişdir. Efır-yağ qarışığı

inyeksiyaları həm də öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanüs, qıcolma hallarında, müalicə və doğuş zamanı ağrısızlaşdırma vasitəsi kimi istifadə edilirdi. 1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efır-yağ qarışığının “Analgezin” adı altında istehsal edilməsinə icazə verilmişdir.

1964-cü ildə SSRİ TEA A.V.Vişnevski adına Ümumittifaq Cərrahiyyə İnstitutunun Elmi Şurasında M.Topçubaşovun tibb elminin inkişafındakı, xüsusilə analgezin inyeksiya üsulunun işlənib hazırlanmasındakı xidmətləri A.V.Vişnevski adına xatirə medalı ilə təltif olunmuşdur.

Mustafa bəy Topçubaşova 1940-cı ildə Azərbaycanın Əməkdar elm xadimi adı verilmiş, 1943-cü ildə isə Stalin mükafatına layiq görülmüşdür.

Böyük Vətən müharibəsində əldə olunan qələbəyə görə professor Mustafa bəy Topçubaşovun əməyi yüksək qiymətləndirilmiş, o, “Qızıl Ulduz” ordeni, “Qafqazın müdafiəsinə görə”, “Almaniya üzərində qələbəyə görə”, “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə” medalları ilə təltif olunmuşdur.

Alimin adı 1945-ci ildə yenidən yaradılmış Azərbaycan Elmlər Akademiyasına seçilmiş 15 görkəmli alimlərin sırasında yer almış, 1947-1949-cu illərdə Eksperimental Tibb İnstitutuna rəhbərlik etmişdir. Mustafa bəy Topçubaşov 1951-ci ildən həyatının sonuna qədər Azərbaycan Elmlər Akademiyası prezidentinin müavini vəzifəsində işləmişdir.

M.Topçubaşov 1949-cu ildə SSRİ Tibb Akademiyasının müxbir üzvü, 1960-cı ildə isə həqiqi üzvü seçilmişdir.

Görkəmli alimin elmi fəaliyyəti çoxcəhətlidir. O, 200 elmi əsərin, 8 monoqrafiyanın, çoxlu sayda elmi topluların, Azərbaycan dilində 110 çap vərəqi həcmində 5 cildlik cərrahlığa dair dərsliyin müəllifidir.

M.Topçubaşov 62 illik əmək fəaliyyəti dövründə 100 minə yaxın uğurlu cərrahiyyə əməliyyatı aparmışdır. O, gərgin elmi və praktik fəaliyyətlə yanaşı, tibb kadrlarının hazırlanması sahəsində də böyük işlər görmüşdür. Onun rəhbərliyi altında 35 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir.

M.A.Topçubaşov 1951-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü, 1954-cü ildə XI Lissabon konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir. O həm də Ümumittifaq Cərrahlar Cəmiyyətinin üzvü, Vişnevski adına Cərrahlar Cəmiyyətinin fəxri üzvü, "Böyük tibb ensiklopediyası"nın redaktorlarından biri, "Abdominal cərrahiyyə" jurnalının redaktoru olmuşdur.

M.Topçubaşov uzun illər Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri, Asiya, Afrika və Latın Amerikası ilə Dostluq Komitəsinin üzvü olmuş, bu sahədə məhsuldar fəaliyyətinə görə 1959-cu ildə Ümumdünya Sülh Şurasının gümüş medalına layiq görülmüşdür.

1955-59-cu və 1967-71-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri olmuş, I-X çağırışlarda Respublika Ali Sovetinə deputat seçilmiş, Azərbaycan Respublikası Sülhü Müdafiə komitəsinin sədri, Ümumittifaq Sülhü Müdafiə Komitəsinin üzvü, Sovet İttifaqı Asiya və Afrika ölkələri xalqları ilə Həmrəylik Komitəsinin üzvü, “Böyük Tibb Ensiklopediyası”nın redaktoru və Azərbaycan Sovet Ensiklopediyası (ASE) baş redaksiya heyətinin üzvü olmuşdur.

1975-ci ildə yüksək mükafata – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən akademik M.Topçubaşov dörd Lenin ordeni, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri, döyüş orden və medalları, Bolqarıstanın III dərəcəli "Kirill və Mefodiy" ordeni və eyni zamanda, "SSRİ sanitar müdafiəsi" ordeni və "SSRI sanitar müdafiəsi əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

M.Topçubaşov 200-dən artıq elmi işin, o cümlədən 5 cildlik «Xüsusi cərrahiyyə» əsərinin, 7 monoqrafiyanın, kəşf və ixtiraların müəllifi olmuş, onun məsləhətçiliyi və rəhbərliyi altında 8 doktorluq və 16 namizədlik dissertasiyası müdafiə edilmişdir. Onun ömür yolu demək olar ki, ancaq zirvələr fəth etməkdə keçib. Elmi dərəcələri də, yüksək vəzifələri də bir-birinə silsilə dağlar kimi bağlanıb. Dünya tibb elmində bir sıra yeniliklər, kəşflər də məhz Mustafa bəy Topçubaşovun adı ilə bağlıdır. Doğrudur, Əlimərdan bəy Topçubaşova görə, Mustafa bəy 30-40-cı illərdə az incidilməmişdi. Xoşbəxtlikdən bu bəladan qurtula bilmişdi. Hətta belə bir fakt da var ki, Stalinin yaxın bir adamını ölümdən məhz Mustafa bəy xilas edib. Bütün həkimlərin aciz qaldığı xəstəni əcəlin əlindən öz skalneli ilə qopara bilib. Rus həkimləri heyrət içində bir neçə söz deyə biliblər: " Da, eto Mustafa bek…" Sosialist Əməyi Qəhrəmanı olan, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Mustafa Topçubaşov indiki Milli Elmlər Akademiyasının yaradılmasında fədakarlıq göstərmiş 15 məşhur şəxsiyyətdən biri idi. Mustafa bəy Topçubaşov keçmiş SSRİ-nin bütün orden və medalları ilə təltif olunmuşdu. Hətta sənədləri hazırlanıb dünyanın ən yüksək mükafatına – Nobel mükafatına təqdim edilmişdi, amma nəticəsi olmadı. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan akademik Mustafa bəy Topçubaşov tibbi kadrların, alimlərin yetişməsində də böyük əmək sərf etmişdir. 1995-ci ildə Ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə görkəmli alimin 100 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. Yubiley tədbirində iştirak və çıxış edən Heydər Əliyev parlaq nitqində belə söyləmişdi : "… Azərbaycanda hakimiyyətə gələndən mənim Mustafa bəylə görüşlərim çox olub. Mustafa bəy Topçubaşov anadan ziyalı doğulmuşdu…"

Mustafa bəyin həyat yoldaşı Reyhan Topçubaşova Azərbaycanın ilk qadın rəssamlarından biridir. Əməkdar incəsənət xadimi olan Reyhan xanım portret, məişət, mənzərə janrlarında işləmiş, eləcə də süjetli kompozisiyalar və natürmortlar çəkmişdir. Mənzərələrində Abşeron təbiətinin təsviri əsas yer tutur. Hətta mahnı və rəqs ansamblları üçün də geyim eskizləri hazırlamışdır. Unudulmaz Əzim Əzimzadənin tələbəsi olmuş Reyhan Topçubaşovanın əsərləri ötən əsrin 30- cu illərindən müxtəlif sərgilərdə nümayiş etdirilib.

Bu xoşbəxt cütlüyün üç övladı olub: İbrahim, Zemfira, Elmira. Valideynlərinin sənətlərini davam etdirən qardaş-bacılar da öz sahələrinin öncülləri və məşhur simaları kimi adlarını tarixə yazıblar. Zemfira Topçubaşova Azərbaycan Tibb Universitetinin Müalicə profilaktika fakültəsinin I mamalıq-ginekologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, əməkdar müəllim və prezident təqaüdçüsü idi. Elmira Topçubaşova isə ömrünü incəsənətə bağlamışdı, Azərbaycanın görkəmli musiqiçilərindən biri idi. Ailənin yeganə oğlu İbrahim Topçubaşov isə görkəmli alim, tibb elmləri doktoru, cərrah, bəstəkar və qeyri-adi istedada malik alicənab və mötəbər bir şəxsiyyət olub. Cəmi 45 il ömür sürmüş bu unudulmaz insanın daxili aləmi zəngin, həyata baxışı çox orijinal və maraqlı olub. Onun həyatı, fəaliyyəti, yaradıcılığı , şeirləri, eləcə də maraq dünyası, hobbisi, xatirələri və həmkarlarının dedikləri ilə tanış olduqca, heyrət içində qalırsan. Qısa bir ömrə bu nəhəng işlər necə sığıb?

Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri, Azərbaycan SSR EA akademiki, Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR əməkdar elm xadimi, Azərbaycan SSR EA vitse-prezidenti Mustafa

bəy Topçubaşov 1981-ci il noyabr ayının 20-də Bakı şəhərində vəfat edib, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan xalqının sədaqətli oğlu, alovlu vətənpərvər, ictimai-siyasi xadim, akademik Mustafa bəy Topçubaşov qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaqdır.